**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

Təsdiq edirəm:

Tədris məsələləri üzrə prorektor v.i.e.:

________ dos. Zaur Məmmədov

"12" fevral 2026-cı il

**Fənn sillabusu**
**(İşçi tədris proqramı)**

**İxtisasın şifri və adı:** 6001007 - Xarici dil (İngilis dili) müəllimliyi
**Fakültə**: Filologiya və ibtidai təhsil
**Kafedra:** Riyaziyyat və informatika

**I. Fənn haqqında məlumat**:

**Fənnin adı:** Təhsildə İKT (İşçi fənn proqramı Lənkəran Dövlət Universitetinin Riyaziyyat və informatika kafedrasının 23 yanvar 2026-cı il tarixli (07 nömrəli pr.) qərarı ilə təsdiq edilmişdir)
**Kodu:** İF-B08
**Tədris ili:** II 2025-2026
**Semestr:** IV (yaz)
**Tədris yükü:** Cəmi: 150 saat. Auditoriya yükü - 45 (45 saat seminar)
**Təhsilalma forması:** Əyani
**Tədris dili:** Azərbaycan dili
**AKTS üzrə kredit:** 5 kredit

**II. Müəllim haqqında məlumat:**

**Soyadı, adı, ata adı, elmi dərəcəsi və elmi adı:** m.Məmmədova Aytən Rəşadət qızı
**Məsləhət günləri və saatı:** I-II günlər: saat $10^{15}$-$11^{50}$
**E-mail ünvanı:** aytenmemmedova689@gmail.com
**Kafedranın ünvanı:** Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi 118, LDU-nun 3 saylı tədris binası

**III. Tövsiyə olunan dərslik, dərs vəsaiti və metodik vəsaitlər:**

***Əsas***


1. R.Mahmudzadə, İ.Sadıqov, N.İsayeva., "İnformatika dərslik komplekti" Baki, 2025
2. Fizuli Əzimov., "İnformatika və kompüter texnologiyaları" 2021
3. Mustafayeva A.M., İsrafilova E.N., Əliyeva A.Ə., Xəlilov E.O., Abdurrahmanova A.M., Baxşiyeva G.S., "MICROSOFT TEAMS" proqramı və onun istifadə qaydaları üzrə METODİK GÖSTƏRİŞ, 2020
4. A.Rzayeva, Z.Paşayeva:İKT,Bakı-2019
5. G.Əbdiyeva-Əliyeva. Kibertəhlükəsizliyin əsasları. Dərs vəsaiti, Bakı, 2022 https://ru.scribd.com/document/805697194/Kibertehlukesizliyin-esaslari
6. Лада Рудикова, Microsoft Office Excel 2019. — СПб.: БХВ-Петербург, 2020.
7. R.Hümbətəliyev, A.Quliyev, Ç.Həmzəyev, K.Qasımova, A.Sadıqov, "İnformatika və təhsildə İKT", "Elm və təhsil", Bakı-2018
8. Musabəyova A.Y., "Kompüter şəbəkələrinin qurulma və işləmə prinsipləri" Bakı, 2017
9. V.B.Müslümov, Ə.Ə.Əliyev, S.B.Həbibullayev, Y.B.Sərdarov: İnformatika. Bakı-TQDK. 2015,
10. A.Həsrətov,G.Çəndirli və başqaları:Tədrisdə İKT-dən istifadə metodikası.Bakı, 2019
11. https://e-qanun.az/
12. İnternet resursları və mühazirə materialları

13. R.Ə. Əliquliyev, Y.N. İmamverdiyev – "Kiber-fiziki sistemlərin təhlükəsizliyi və rəqəmsal imza texnologiyaları", Bakı, Elm, 2021.
14. R.M. Əliquliyev – "Süni intellektin nəzəri əsasları və təhsildə tətbiq modelləri", Bakı, Elm nəşriyyatı, 2024.
15. M.A. Əhmədzadə – "İnformatika və rəqəmsal texnologiyaların əsasları" (Ali məktəblər üçün dərslik), Bakı, 2023.
16. R.Q. Ələkbərov – "İnformasiya texnologiyaları: Qurğular, Proqramlar, Şəbəkələr", Bakı, İqtisad Universiteti Nəşriyyatı, 2024.

**IV. Prerekvizit fənlər:** Fənnin tədrisi üçün öncədən başqa bir fənnin tədrisinə zərurət yoxdur.

**V. Korekvizit fənlər:** Fənnin tədrisi ilə eyni zamanda başqa fənnin tədrisinə ehtiyac yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:** Təhsil sisteminin informasiya və kommunikasiya texnologiyaları (İKT) əsasında təkmilləşdirilməsi informasiya cəmiyyətinin əsas xüsusiyyətlərindən biridir. Beynəlxalq standartlara uyğun keyfiyyətcə yeni təhsil modelinin qurulması, vahid elektron təhsil məkanının yaradılması və təhsil sisteminin dünya təhsil məkanına inteqrasiya etdirilməsi vacib məsələlərdəndir.

Bu məqsədlə təhsil müəssisələrinin İKT avadanlığı, o cümlədən kompüter, noutbuk, interaktiv lövhələr ilə təchizatı, bütünlükdə təhsil sisteminin informasiyalaşdırılması kompüter və İKT savadlılığı olan kadrların hazırlanmasını tələb edir.

Tədrisdə yeni texnologiyalardan istifadə təhsil prosesini xeyli sadələşdirir, onu dinamik və çevik edir, tədris prosesini individual proqram üzrə təşkil etməyə imkan verir. İKT ilə aparılan dərslər daha çox cəlbedici və yaddaqalan olur.

Qloballaşan dünyada təhsil sisteminin informasiya cəmiyyətinin tələblərinə uyğunlaşdırılması və bu məqsədlə informasiya cəmiyyətində təhsilin modernləşdirilməsi məsələlərinin həlli təhsildə İKT-dən geniş və səmərəli istifadə olunmasını tələb edir.

Təhsildə İKT kursu bir sıra məsələlərə (təhsildə idarəetmə, İKT infrastrukturu, kadr məsələləri, elektron sənəd dövriyyəsi, distant təhsil, Elektron təhsil sistemləri və s.) – təhsilin bütün mərhələlərində İKT-nin səmərəli tətbiqinə dair metod və vasitələrin öyrədilməsinə həsr olunacaqdır.

Kursun əsas məqsədi təhsil sistemində İKT-nin tətbiqi ilə bağlı əsas prinsiplərin və onların inkişaf yollarının göstərilməsi və bu sahədə əsas məqsəd və vəzifələrin, fəaliyyət istiqamətlərinin, tətbiq olunmalı metod və mexanizmlərin öyrədilməsidir.

Fənnin məqsədi tələbələrə tədris olunan mövzular üzrə və onların praktiki tətbiqi üzrə mükəmməl bilik, bacarıq və vərdişlər aşılamaqla yanaşı, həm də aşağıdakılara nail olmaqdır:

- tələbələrdə düşüncə qabiliyyətinin inkişafı;
- deduktiv və induktiv təhlil bacarığının inkişafı;
- müzakirə xəttinin inkişafı, alternativ yolun tapılması, qəbul edilən qərarın dəqiqliyi və effektivliyinin əsaslandırılması, ümumiləşdirmə və ya deduksiya əsasında alınan nəticələri izah etmək və əsaslandırmaq bacarığının inkişafı;
- gələcəkdə ixtisası üzrə yaranacaq real problemin həll edilməsində fənn üzrə əldə etdiyi bilik, bacarıq və vərdişlərdən istifadə etmə bacarığının inkişafı;
- sistemində İKT-nin tətbiqi ilə bağlı əsas prinsiplərin və onların inkişaf yollarının göstərilməsi;
- İKT-nin tətbiqi ilə bağlı əsas məqsəd və vəzifələrin, fəaliyyət istiqamətlərinin, tətbiq olunmalı metod və mexanizmlərin öyrədilməsi.

**VII. Davamiyyətə verilən tələblər:** Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun

olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır.

**VIII. Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballıq sistemlə qiymətləndirilir. Yəni tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı (50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə (aralıq qiymətləndirmə) görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şurasının 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

- 10 bal - tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir;
- 9 bal - tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun məzmununu tam aça bilir;
- 8 bal - tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;
- 7 bal - tələbə keçilmiş materialı yaxşı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir;
- 6 bal - tələbənin cavabı əsasən düzgündür;
- 5 bal - tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir;
- 4 bal - tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;
- 3 bal - tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;
- 1-2 bal - tələbənin mövzudan qismən xəbəri var;
- 0 bal - cavab yoxdur.

Tələbənin fənn üzrə aralıq qiymətləndirmə balının (imtahanda topladığı balın) miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin fənn üzrə aralıq qiymətləndirmə balı cari qiymətləndirmə balına (semestr ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala) əlavə olunmur.

Fənn üzrə cari və aralıq qiymətləndirmənin ümumi nəticəsinə görə tələbənin biliyi yekun olaraq aşağıdakı kimi qiymətləndirilir:

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | Əla | A |
| 2. | 81-90 | Çox yaxşı | B |
| 3. | 71-80 | Yaxşı | C |
| 4. | 61-70 | Kafi | D |
| 5. | 51-60 | Qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | Qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**

Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir

X. **Təqvim mövzu planı**: Seminar: 45 saat; **Cəmi: 45 saat.**

| № | Tədris olunan mövzuların | Saat | Tarix |
|---|---|---|---|
| 1 | 2 | 3 | 4 |
| 1 | **Mövzu №1. İnformasiya və informasiya prosesləri.**<br>**Plan**<br>1. İnformasiya anlayışı. İnformasiyanın növləri və əsas xassələri.<br>2. İnformasiya prosesləri.<br>**Mənbə:** [1,2,7,9,12] | 2 | |
| 2 | **Mövzu №2. Kompüter informasiya və kommunikasiya texnologiyalarının əsas atributu kimi.**<br>**Plan**<br>1. Kompüterlər və onların arxitekturası.<br>2. Kompüterlərin əsas və əlavə qurğuları.<br>**Mənbə:** [1,2,7,9,12,16] | 2 | |
| 3 | **Mövzu №3. Kompüterin proqram təminatı. Təhsildə tətbiq olunan proqram vasitələri.**<br>**Plan**<br>1. Sistem proqram təminatı<br>2. Tətbiqi proqram təminatı<br>3. Təhsil yönümlü kompüter proqramları<br>**Mənbə:** [1-3,6-7,9,12,16] | 4 | |
| 4 | **Mövzu №4. Əməliyyat sistemləri və onların növləri. MS Windows əməliyyat sistemi.**<br>**Plan**<br>1. Əməliyyat sistemlərii və onların növləri.<br>2. MS Windows əməliyyat sistemi, onun idarəetmə paneli və standart proqramları<br>**Mənbə:** [1-3,6-7,9,12,16] | 4 | |
| 5 | **Mövzu №5. MS Office tətbiqi proqram paketi və onun komponentləri. Microsoft Word mətn prosessoru**<br>**Plan**<br>1. MS Office tətbiqi proqram paketi və onun komponentləri.<br>2. Microsoft Word mətn prosessoru və əsas xüsusiyyətləri.<br>**Mənbə:** [1-3,9,12,16] | 2 | |
| 6 | **Mövzu №6. MS Excel cədvəl prosessoru**<br>**Plan**<br>1. MS Excel cədvəl prosessoru və əsas xüsusiyyətləri.<br>2. MS Excel-də funksiyalardan istifadə, sadə hesablamaların aparılması<br>3. MS Excel-də qrafik və diaqramların tərtib olunması qaydaları.<br>**Mənbə:** [1-3,7,9,12,16] | 4 | |
| 7 | **Mövzu №7. MS Power Point proqram**<br>**Plan**<br>1. MS PowerPoint elektron təqdimat proqramı, onun ümumi interfeysi.<br>2. Menyu sətrinin sahələri və əmrləri, alətlər panelinin əsas elementləri.<br>**Mənbə:** [1-3,9,12,16] | 2 | |

| | | | |
|---|---|---|---|
| 8 | **Mövzu №8. Verilənlər bazası və onların idarəetmə sistemləri (VBİS).**<br>**Plan**<br>1. Verilənlər bazasının idarəetmə sistemini layihələndirilməsi üsulları.<br>2. Verilənlər bazasının idarəetmə sistemynində bazanın yaradılması və idarə olunması.<br>**Mənbə:** [1-3,9,12,16] | 4 | |
| 9 | **Mövzu №9. Kompüter şəbəkələri və onun növləri**<br>**Plan**<br>1. Kompüter şəbəkələri və onun növləri<br>2. Lokal şəbəkə topologiyaları<br>3. Qlobal şəbəkə texnologiyaları və avadanlıqları<br>**Mənbə:** [1,2,8,12,16] | 2 | |
| 10 | **MövzuN№10. İnternet. İnternetdə axtarış sistemləri**<br>**Plan:**<br>1. İnternetin inkişaf tarixi.<br>2. İnternetdə ünvanlaşdırma.<br>3. İnternet xidmətləri.<br>4. İnternetdə axtarış sistemləri<br>**Mənbə:** [1,2,8,12,16] | 2 | |
| 11 | **MövzuN№11. İnformasiya təhlükəsizliyi, informasiyanin mühafizəsi üsulları, elektron imza**<br>**Plan**<br>1. İnformasiya təhlükəsizliyi, informasiyanin mühafizəsi üsulları<br>2. Kompüterə hücumlar, şifrələnmə, antiviruslar<br>3. Elektron imza, elektron hökumət, elektron sənəd dövriyyəsi.<br>**Mənbə:** [1, 2, 5, 8,12,13,16] | 2 | |
| 12 | **Mövzu №12. İKT-nin təhsilə tətbiqində əsas məqsəd, vəzifə və istiqamətlər.**<br>**Plan**<br>1. İnformasiya cəmiyyəti və onun formalaşmasında Dövlət proqramları və tədbirləri.<br>2. Təhsildə İKT-nin tətbiqinin müasir üsulları və metodları.<br>3. İKT-nin təhsilə tətbiqində əsas məqsədlər, vəzifələr və istiqamətlər,<br>**Mənbə:** [1,2, 4, 7, 9-12] | 2 | |
| 13 | **Mövzu №13. Təhsildə İnnovasiyaların idarəedilməsində İKT-nin rolu**<br>**Plan**<br>1. Təhsil texnologiyalarında innovativ yanaşmalar<br>2. Rəqəmsal transformasiya və təhsil siyasəti<br>3. Təhsildə yeni texnologiyaların tətbiq siyasəti<br>**Mənbə:** [1,2, 4, 7, 9-10, 12, 15] | 2 | |
| 14 | **MövzuN№14. Distant təhsilin təşkilinin xüsusiyyətləri və xarakteristikaları.**<br>**Plan**<br>1. Distant təhsil. Distant təhsilin baza xüsusiyyətləri və xarakteristikaları.<br>2. Distant təhsilin atributları.Distant təhsillə məşğul olan müəssisələrin təsnifatı. | 4 | |

| | | | |
|---|---|---|---|
| | 3. Onlayn təhsil platformaları<br>**Mənbə:** [1,2, 4, 7-9, 12, 16] | | |
| **15** | **MövzuNº15. Suni intellekt və onun təhsildə tətbiqi**<br>**Plan**<br>1. Suni intellektin tarixi<br>2. Süni İntellekt və Qeyri-səlis Məntiq<br>3. Suni intellektin təhsilə tətbiqi<br>**Mənbə:** [12, 14-15] | 2 | |
| **16** | **MövzuNº16. Elektron və multimedia tədris vasitələri və onların təsnifatı.**<br>**Plan**<br>1. Elektron və multimedia tədris vasitələri<br>2. Elektron lövhənin təlim prosesində rolu və imkanları<br>**Mənbə:** [12, 15-16] | 2 | |
| **17** | **MövzuNº17. Google alətləri və WEB 2.0 texnologiyalarının tədris prosesində istifadəsi.**<br>**Plan**<br>1. Şəbəkədə ünsiyyət<br>**2.** Google alətlərinin təhsildə rolu<br>**3.** WEB 2.0 texnologiyalarının tədris prosesində tətbiqi<br>**Mənbə:** [1,2,8,12,16] | 2 | |
| **18** | **Mövzu Nº18. Elektron Təhsil Sistemləri**<br>**Plan**<br>1. Elektron Təhsil Sistemləri, onların xüsusiyyətləri<br>2. Elektron Təhsil Sistemlərinin yaradılmasına və tətbiqinə qoyulan tələblər.<br>3. Elektron Təhsil Sistemlərinin kompleks alt sistemləri və onların təyinatı.<br>**Mənbə:** [12, 15-16] | 1 | |
| | **CƏMİ:** | 45 | |

**XI. Fənn üzrə tələblər:**

Fənnin tədrisinin sonunda tələbələr Təhsildə İKT kursundan müəyyən biliklərə malik olmalı, o cümlədən fənn haqqında fikirlərini əsaslandırmağı bacarmalıdırlar. İKT avadanlıqlarından və təhsildə lazım olan proqram təminatını məqsədəmüvafiq şəkildə istifadə etmək bacarıq və vərdişlərinə yiyələnməlidirlər.

"Təhsildə İKT" fənninin tədrisi zamanı tələbələrə informatikanın müxtəlif bölmələrinin və praktik tətbiqinin öyrədilməsi fənn üzrə qoyulan əsas tələblərdən biridir.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- seminar, praktiki tapşırıqlar
- təqdimat və müzakirə
- debat
- müstəqil iş/araşdırma
- açıq müzakirələr
- layihə
- hesabat
- bilik və bacarıqlarına dair testlər, kompüter əsaslı testlər

Təhsildə nəzəriyyə və praktiki təlim arasında tarazlıq gözlənilir. Əsas diqqət əmək bazarının dəyişən ehtiyaclarına uyğun olaraq praktiki bacarıqların gücləndirilməsinə yönəldilir.

**XIII. Fənn üzrə təlim nəticələri:**

- Kompüterin texniki qurğularını və proqram təminatının strukturunu (Sistem, Tətbiqi, İnstrumental) fərqləndirir, MS Windows mühitində sərbəst işləmə bacarıqlarını nümayiş etdirir
- MS Word-də mürəkkəb mətnləri formatlayır, MS Excel-də düsturlarla hesablamalar aparır və MS PowerPoint vasitəsilə multimedia tərkibli təqdimatlar hazırlayır.
- Verilənlər bazasının (VB) strukturunu anlayır, məlumatların VBİS vasitəsilə sistemləşdirilməsi, saxlanılması və emalı proseslərini şərh edir.
- Təhsilin rəqəmsallaşdırılmasının məqsəd və vəzifələrini izah edir, innovasiyaların idarə edilməsində İKT-nin rolunu qiymətləndirir.
- Google alətlərindən və Web 2.0 texnologiyalarından istifadə edərək distant təhsil və birgə öyrənmə mühiti (LMS) yaradır.
- İnformasiya təhlükəsizliyi qaydalarına (e-imza, mühafizə) əməl edir və süni intellekt alətlərini tədris materiallarının fərdiləşdirilməsinə inteqrasiya edir.

**XIV. Tələbələrin fənn haqqında fikrinin öyrənilməsi:**

---

---

**XV. Kollokvium sualları:**

**I. Kollokvium sualları:**

1. İnformasiya anlayışı. İnformasiyanın növləri və əsas xassələri. İnformasiya prosesləri
2. Kompüterlər və onların arxitekturası
3. Kompüterlərin əsas və əlavə qurğuları
4. Sistem proqram təminatı
5. Tətbiqi proqram təminatı.Təhsil yönümlü kompüter proqramları
6. Əməliyyat sistemləri və onların növləri
7. MS Windows əməliyyat sistemi, onun idarəetmə paneli və standart proqramları
8. MS Word mətn prosessoru və onun əsas xüsusiyyətləri
9. MS Excel cədvəl prosessoru və onun əsas xüsusiyyətləri
10. MS Power Point elektron təqdimat proqramı, onun ümumi interfeysi.

**II. Kollokvium sualları**

1. Verilənlər bazasının idarəetmə sisteminində bazanın yaradılması və idarə olunması.
2. Kompüter şəbəkələri və onun növləri
3. İnternet və onun xidmətləri
4. İnformasiya təhlükəsizliyi, informasiyanin mühafizəsi üsulları
5. Kompüter virusları və antivirus proqramları
6. Elektron imza, elektron hökumət, elektron sənəd dövriyyəsi
7. İnformasiya cəmiyyəti və onun formalaşmasında Dövlət proqramları və tədbirləri
8. İKT-nin təhsilə tətbiqində əsas məqsədlər, vəzifələr və istiqamətlər
9. Təhsildə İnnovasiyalar və onların idarə edilməsində İKT-nin rolu
10. Distant təhsilin təşkilinin xüsusiyyətləri və xarakteristikaları

**XVI. İmtahan sualları:**

1. İnformasiya anlayışı. İnformasiyanın növləri, əsas xassələri və prosesləri
2. Kompüterlər və onların arxitekturası.
3. Kompüterlərin əsas və əlavə qurğuları.
4. Sistem proqram təminatı.
5. Tətbiqi proqram təminatı.
6. Təhsil yönümlü kompüter proqramları

7. Əməliyyat sistemləri və onların növləri.
8. MS Windows əməliyyat sisteminin idarəetmə paneli və standart proqramları.
9. MS Office tətbiqi proqram paketi və onun komponentləri. Microsoft Word mətn prosessoru və əsas xüsusiyyətləri.
10. MS Excel cədvəl prosessoru. MS Excel-də funksiyalardan istifadə, sadə hesablamaların aparılması
11. MS PowerPoint elektron təqdimat proqramı, onun ümumi interfeysi.
12. Verilənlər bazası və onların idarəetmə sistemləri
13. Kompüter şəbəkələri və onun növləri.Lokal şəbəkə topologiyaları.
14. Qlobal şəbəkə texnologiyaları və avadanlıqları.
15. İnternetin inkişaf tarixi.İnternetdə ünvanlaşdırma.
16. İnternet xidmətləri. İnternetdə axtarış sistemləri.
17. İnformasiya təhlükəsizliyi, informasiyanin mühafizəsi üsulları.
18. Elektron imza, elektron hökumət, elektron sənəd dövriyyəsi.
19. İnformasiya cəmiyyəti və onun formalaşmasında Dövlət proqramları və tədbirləri.
20. Təhsildə İKT-nin tətbiqinin müasir üsulları və metodları.
21. İKT-nin təhsilə tətbiqində əsas məqsədlər, vəzifələr və istiqamətlər,
22. Təhsildə İnnovasiyaların idarəedilməsində İKT-nin rolu.
23. Distant təhsilin təşkilinin xüsusiyyətləri və xarakteristikaları.
24. Distant təhsilin atributları. Distant təhsillə məşğul olan müəssisələrin təsnifatı. Onlayn təhsil platformaları.
25. Suni intellekt və onun təhsildə tətbiqi.
26. Elektron və multimedia tədris vasitələri
27. Elektron lövhənin təlim prosesində rolu və imkanları.
28. Google alətləri və WEB 2.0 texnologiyalarının tədris prosesində istifadəsi.
29. Elektron Təhsil Sistemlərinin yaradılmasına və tətbiqinə qoyulan tələblər.
30. Elektron Təhsil Sistemlərinin kompleks alt sistemləri və onların təyinatı.

**"Təhsildə İKT"** fənninin sillabusu **6001007-Xarici dil** (İngilis dili) müəllimliyi ixtisasının təhsil proqramı, tədris planı və Lənkəran Dövlət Universitetinin Riyaziyyat və informatika kafedrasının 23 yanvar 2026-cı il tarixli (07 nömrəli pr.) qərarı ilə təsdiq edilmiş işçi fənn proqramı əsasında tərtib edilmişdir.

Sillabus **"Riyaziyyat və informatika"** kafedrasında müzakirə edilərək təsdiq edilmişdir **(23 yanvar 2026-cı il, protokol № 7).**

**Fənn müəllimi:** **m. Aytən Məmmədova**

**Kafedra müdiri:** **r.ü.f.d., dos. Ruslan Həmidov**